Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Samir Tağıyevin 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Milli İstiqlal Partiyasının səlahiyyətli nümayəndəsi Əhmədov Yasin Əhməd oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 oktyabr 2015-ci il tarixli 32 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 6 oktyabr 2015-ci il

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Milli İstiqlal Partiyasının səlahiyyətli nümayəndəsi Əhmədov Yasin Əhməd oğlu 5 oktyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək 41 saylı Sumqayıt birinci seçki dairəsi üzrə namizədliyi həmin partiya tərəfindən irəli sürülmüş Əhmədli Dünyamin Əhməd oğlunun imza vərəqələrinə və seçki sənədlərinə baxılmamış saxlanılmasına dair dairə seçki komissiyasının qərarını mübahisələndirmiş və müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü Samir Tağıyev həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Səlahiyyətli nümayəndə müraciətində göstərmişdir ki, Azərbaycan Milli İstiqlal Partiyası tərəfindən 41 saylı Sumqayıt birinci seçki dairəsi üzrə namizədliyi irəli sürülmüş D.Ə.Əhmədlinin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və digər seçki sənədləri 2015-ci il oktyabrın 2-si saat 9.00-da dairə seçki komissiyasına təqdim edilmiş, bu barədə ona arayış verilmiş, lakin dairə seçki komissiyası 3 oktyabr 2015-ci il tarixli 20/67 saylı qərarı ilə müddətin üzürsüz səbəbdən ötürülməsini əsas gətirərək təqdim edilmiş sənədləri əsassız olaraq baxılmamış saxlamışdır.

Dairə seçki komissiyası müvafiq qərarını onunla əsaslandırmışdır ki, Azərbaycan Milli İstiqlal Partiyasının səlahiyyətli nümayəndəsi imza vərəqələrini və digər seçki sənədlərini Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58.1-ci maddəsində nəzərdə tutulmuş müddət ötürülməklə təqdim etdiyindən həmin sənədləri baxılmamış saxlamışdır.

Araşdırma prosesində müəyyən edilmişdir ki, səlahiyyətli nümayəndə Y.Ə.Əhmədov imza vərəqələrini və digər seçki sənədlərini 2015-ci il oktyabrın 2-də dairə seçki komissiyasına təqdim etmiş, bu barədə ona müvafiq arayış verilmiş, lakin

arayışda sənədlərin qəbul edilməsi vaxtı (saatı) göstərilməmişdir. Bu hal mübahisə predmeti olduğundan deputatlığa namizədin xeyrinə həll edilməlidir.

Belə olan halda imza vərəqələri və ona əlavə edilmiş seçki sənədləri qanunvericiliklə müəyyən edilmiş müddətdə verilmiş hesab edildiyindən müraciət əsaslı hesab edilərək təmin edilməli, dairə seçki komissiyasının 3 oktyabr 2015-ci il tarixli 20/67 saylı qərarı ləğv edilməli və deputatlığa namizəd D.Ə.Əhmədlinin namizəd kimi qeydə alınması üçün təqdim edilmiş sənədlərin mümkün qədər qısa müddət ərzində araşdırılması vəzifəsi dairə seçki komissiyasına həvalə edilməlidir.

Seçki Məcəlləsinin 112.9-cu maddəsinə görə yuxarı seçki komissiyası aşağı seçki komissiyasının qərarını ləğv etmək, məsələnin mahiyyəti üzrə qərar qəbul etmək və ya məsələyə yenidən baxılması haqqında göstəriş vermək hüququna malikdir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci, 147.1-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə   g ə l d i m :**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Milli İstiqlal Partiyasının səlahiyyətli nümayəndəsi Əhmədov Yasin Əhməd oğlunun 5 oktyabr 2015-ci il tarixli 32 saylı müraciəti əsaslı olduğundan təmin edilsin, 41 saylı Sumqayıt birinci seçki dairəsi dairə seçki komissiyasının 3 oktyabr 2015-ci il tarixli 20/67 saylı qərarı ləğv edilsin.
2. Deputatlığa namizəd Əhmədli Dünyamin Əhməd oğlunun namizəd kimi qeydə alınması üçün təqdim edilmiş imza vərəqələri və ona əlavə edilmiş seçki sənədlərinin mümkün qədər qısa müddət ərzində araşdırılması vəzifəsi həmin dairə seçki komissiyasına həvalə edilsin.
3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü                                                  Samir Tağıyev